**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MİLLİ İQTİSADİYYATDA İNSAN AMİLİNDƏN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ

İxtisas: 5307.01 – İqtisadi nəzəriyyə

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Jalə Saməddin qızı Mirzəbəyova**

Flsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2026**

Dissertasiya işi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun "İqtisadi siyasətin nəzəri əsasları" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | iqtisad elmləri doktoru, professor<br>**Gülşən Zaid qızı Yüzbaşiyeva** |
| Rəsmi opponentlər: | iqtisad elmləri doktoru, dosent<br>**Sevda Məmməd qızı Mikayılova** |
| | iqtisad üzrə fəlsəfə doktoru, dosent<br>**Habil Hüseyn oğlu Aslanov** |
| | iqtisad üzrə fəlsəfə doktoru<br>**Azər Maarif oğlu Pənahov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.10 Dissertasiya Şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ______________ | iqtisad elmləri doktoru, professor<br>**Nazim Müzəffər oğlu İmanov** |
| Dissertasiya şurasının elmi katibi: ______________ | iqtisad üzrə fəlsəfə doktoru<br>**Sevda Məmməd qızı Seyidova** |
| Elmi seminarın sədri: ______________ | iqtisad elmləri doktoru, professor<br>**Fuad Əlinağı oğlu Qənbərov** |

## Dissertasiya işinin ümumi xarakteristikası

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** İnsan amili cəmiyyətin və iqtisadiyyatın fəaliyyətində insanın bilik, bacarıq, peşəkarlıq, sağlamlıq, motivasiya, dəyərlər sistemi, yaradıcılıq və sosial davranış kimi xüsusiyyətlərinin məcmusunu ifadə edir. Bu anlayış insanın yalnız istehsal prosesində iştirakını deyil, həm də qərarvermə, innovasiya, idarəetmə, sosial münasibətlər və institusional mühitə təsir imkanlarını xarakterizə edir. Bu baxımdan insan amilindən səmərəli istifadə olunması bütün dövrlərdə iqtisadi inkişafın təməl şərti olmuşdur.

Elm, texnika-texnologiya və biliklər inkişaf etdikcə, insan amilinin rolu da əhəmiyyətli dərəcədə dəyişmişdir. İnsanlıq tarixi boyunca baş verən iqtisadi və sosial inkişafın dayanıqlığı və məhsuldarlığı birbaşa insan amilindən istifadə olunması səviyyəsindən asılı olmuşdur. Bu baxımdan milli iqtisadiyyatın inkişafında insan amilinin rolu ilə bağlı araşdırmalar daim aktuallığını və əhəmiyyətini qoruyub saxlamışdır.

Müasir şəraitdə dövlətin, cəmiyyətin və biznesin insan amilindən səmərəli istifadəyə hədəflənməsi xüsusi əhəmiyyət kəsb edir. Texnika-texnologiya nə qədər inkişaf etsə də, insan amili onların üzərində dayanır. İnsan amilinə qoyulan investisiyalar təkcə keyfiyyət göstəricilərinin yüksəlməsinə xidmət etmir, həm də ölkənin sosial-iqtisadi inkişafının davamlılığının, səmərəliliyinin və məhsuldarlığının təmin edilməsinə, rifahın yaxşılaşmasına yol açır.

İnsan amili milli iqtisadi inkişafın strateji resursu kimi çıxış edərək uğurlu nəticələrin və yüksək əmək məhsuldarlığının əldə olunmasına, rəqabət qabiliyyətinin artırılmasına yönəlmiş hədəflərin reallaşdırılmasında həlledici rol oynayır. Milli iqtisadiyyatın inkişafında mövcud olan problemlər insan amilindən istifadədə səmərəliliyin gücləndirilməsinə ehtiyacın olduğunu göstərir. Bu da öz növbəsində insan amilinə qoyulan investisiyaların səmərəliliyinin öyrənilməsi və qiymətləndirilməsində sistemli yanaşmadan istifadə edilməsini tələb edir. Beləliklə, ölkənin iqtisadi inkişafında insan amilindən istifadənin

sistemliyinin və səmərəliliyinin öyrənilməsi xüsusi aktuallıq qazanmış olur.

İnsan amilinin səmərəliliyinin artırılması potensialının dövlət tərəfindən dəstəklənməsi inklüziv iqtisadi yüksəlişə və davamlı inkişafa keçid üçün əlverişli şərait yaradır. Bu isə öz növbəsində ölkənin iqtisadi inkişafının davamlılığının və çevikliyinin təmin edilməsinə imkan verir. XXI əsr iqtisadiyyatında “bilik iqtisadiyyatı”, “süni zəka” və təmassız texnologiyalar kimi anlayışların əhəmiyyətinin getdikcə artması insan amilinin səmərəli istifadəsi ilə bağlı məsələlərin həllinin aktuallığını bir daha ön plana çıxarır.

İnsan amili, insan potensialı, insan kapitalı, əmək ehtiyatları və s. istiqamətlərdə çoxsaylı **araşdırmalar aparılmışdır.** Azərbaycanın N.Gəncəvi, Ə.Xaqani, İ.Nəsimi, M.Fizuli, N.Tusi və s. bu kimi mütəfəkkirləri insan amili ilə bağlı dəyərli fikirlər söyləmişlər. Onlar insanın mənəvi və keyfiyyət dəyərlərini fəlsəfi, siyasi, sosial və ədəbi məsələlər sisteminə daxil edirdilər. Belə ki, onlar bu məsələlər sisteminə və dəyərlərə iqtisadi vəziyyətin başa düşülməsi, onun yenidən təşkili və inkişafının öyrənilməsinin ayrılmaz elementləri kimi baxırdılar.

Klassik iqtisadçılardan U.Petti insan amilinə “monetar dəyər”, A.Smit, D.Rikardo “insanın faydalı xüsusiyyətləri”, “insana və biliklərə məhsuldar qüvvələrin ən vacib tərkib hissəsi”, K.Marks, F.Engels və başqaları “insanın ömür boyu təminatı xərclərinin, ona sərf edilən investisiyaların cəmi” kimi baxırdılar. Bu tədqiqatlar insan amilini istehsalın və milli iqtisadiyyatın səmərəli inkişafının başlıca amili kimi qəbul edilməsinə əhəmiyyətli təsir göstərdi. Daha sonralar J.B.Sey, C.Mill, F.List, C.S.Uolş “insan amili” anlayışını “insanların keyfiyyəti və bacarıqları kapitalı olaraq, kapitalın bir forması” kimi əsaslandırırdılar. İ.Fişer, V.Pareto “insan amili” anlayışını “insanın öz kapitalı” kimi əsaslandırırdılar. A.Marşall, C.Keyns, P.Drukker, D.Tobin, M.Blaut, L.Dublin, F.Kram, İ.Fişer, S.X.Forsit, L.Valras, C.M.Klark, C.Mak-Kulloha, H.D.Makleod, İ.F.Tünen “insan amili” anlayışının inkişaf etdirilməsi və genişləndirilməsi

ilə "insan kapitalı" anlayışı kimi dərk edilməsinin çox vacib olduğunu əsaslandırırdılar. T.Şuls, Q.Bekker insan kapitalını investisiya kimi qəbul edirlər. E.C.Dolan, D.E.Lindsey, C.Koulman insan kapitalını insanın gəlir gətirən bütün qabiliyyətlərinin, bacarıqlarının və biliklərinin toplusu kimi qəbul edirlər.

Azərbaycanın iqtisadçı alimləri də insan amili, insan potensialı, əmək ehtiyatları, əhali, insan kapitalı və s. istiqamətlərdə araşdırmalar aparmış, Azərbaycan iqtisadiyyatına ciddi töhfələr vermişlər. Onlardan: Ə.S.Sumbatzadə, Ş.M.Muradov, R.Ş.Muradov, S.S.Xəlilov, A.K.Ələsgərov, Ş.S.Qafarov, T.Ə.Quliyev, T.S.Vəliyev, G.Z.Yüzbaşiyeva, C.B.Quliyev, S.A.İbadov, Y.H.Həsənov, A.N.Fərruxov, X.Ş.Kərimov, G.A.Əzizova, S.S.Səməndərov, A.N.Muradov, S.M.Seyidova, R.C.Əfəndiyev, F.Q.Musayeva, R.Q.Talıbov, E.N.Kərimov, B.O.Osmanov və digərlərinin adını çəkmək olar.

Ş.M.Muradova görə *"ictimai istehsal prosesinin əsasını və subyektini təşkil edən müəyyən fiziki və zehni qabiliyyətə yəni fiziki inkişafa, sağlamlığa, təhsilə, bacarığa, mənəvi keyfiyyətlərə, ixtisasa, peşə hazırlığına, mədəniyyətə, vətəndaşlıq mövqeyinə sahib olan insanlar, iqtisadi formasiyasından asılı olmayaraq bütün cəmiyyətlərdə ictimai istehsalın zəruri şərti, ölkənin milli sərvətinin həcmini müəyyən edən mühüm amil kimi çıxış edir".*[1]

Rusiya alimləri arasında insan amilini işıqlandıran alimlər İ.Y.Zadorojnyuk, Q.X.Şinqarov, V.Pşetinin, A.İ.Dobrının, S.A.Dyatlov, Y.D.Tsırenov, R.İ.Kapelyuşnikov, S.A.Kurqanskiy və başqalarının adlarını çəkmək olar.

Bu tədqiqatlarla tanışlıq göstərir ki, insan potensialının inkişafı, iqtisadi proseslərdə insan amilindən səmərəli istifadəyə müxtəlif yanaşmalar olsa da, bu mövzu daim aktuallığını saxlayır. Çünki bütün sosial-iqtisadi proseslər məhz insan amili ilə ayrılmaz şəkildə bağlıdır, dünyanın indiki qeyri-müəyyən inkişafı şəraitində insan amilindən istifadənin səmərəliliyinin

---

[1] Şahbaz Muradov, İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər Bakı, Elm, 2004, səh.10

yüksəldilməsinə böyük ehtiyac vardır. Belə ki, insan amilinin keyfiyyət komponentlərinə mənfi təsir göstərən bir sıra problemlər vardır ki, bunlar da öz növbəsində ölkənin iqtisadi yüksəlişi və inkişafının keyfiyyət göstəricilərində də öz əksini tapmaqdadır. Bütün qeyd olunanlar "Milli iqtisadiyyatda insan amilindən istifadənin səmərəliliyinin yüksəldilməsi" mövzusunda araşdırmaların aparılmasını aktuallaşdırır. Bu baxımdan bu dissertasiyanın mövzusu aktual hesab olunur.

**Tədqiqatın obyektini** – milli iqtisadiyyatın formalaşması və inkişafında insan amilindən istifadənin təşkilati-iqtisadi mexanizmləri, **tədqiqatın predmetini** – bu mexanizmlər çərçivəsində insan amilindən istifadənin səmərəliliyinin yüksəldilməsi ilə bağlı iqtisadi münasibətlər təşkil edir.

**Tədqiqatın məqsədi:** Tədqiqatın əsas məqsədi milli iqtisadiyyat şəraitində insan amilindən istifadənin nəzəri əsaslarını araşdırmaq, Azərbaycanda insan amilindən istifadənin mövcud səviyyəsini demoqrafik, təhsil və əmək bazarı göstəriciləri əsasında təhlil və qiymətləndirmək, habelə insan amilindən istifadənin səmərəliliyinin yüksəldilməsi istiqamətlərini elmi cəhətdən əsaslandırmaq və praktik təkliflər hazırlamaqdan ibarətdir.

Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

- iqtisadi inkişafda insan amilinin rolu və mahiyyəti ilə bağlı nəzəri baxışların təkamülünü sistemləşdirmək və ümumiləşdirmək;
- insan amilindən istifadə və insan resurslarının idarə edilməsinin nəzəri əsaslarını sistemləşdirmək və ümumiləşdirmək;
- insan amilinin səmərəli istifadəsinin dövlət tənzimlənməsinin nəzəri əsaslarını araşdırmaq;
- demoqrafik proseslərin və əmək bazarında baş verən dəyişikliklərin insan amilindən istifadəyə təsirini qiymətləndirmək;
- insan amilindən səmərəli istifadədə təhsilin rolunu və təsir mexanizmlərini təhlil etmək və qiymətləndirmək;

- insan amilindən səmərəli istifadənin iqtisadi artımın təmin edilməsində rolunun təşkilati-iqtisadi mexanizmlərini qiymətləndirmək;

- insan kapitalından istifadənin səmərəliliyinin yüksəldilməsi istiqamətlərini müəyyənləşdirmək;

- rəqəmsallaşdırmanın insan amilindən istifadənin səmərəliliyinə təsirini qiymətləndirmək;

- insan amilinin səmərəliliyinin artırılmasında investisiyaların rolunu təhlil etmək və prioritet istiqamətləri müəyyən etmək;

- aparılmış təhlillər əsasında milli iqtisadiyyatda insan amilindən səmərəli istifadə olunması istiqamətində elmi əsaslandırılmış nəticə və praktik təkliflər hazırlamaq.

**Tədqiqat metodları.** Tədqiqat işində riyazi-statistik, analiz-sintez, tarixi-məntiqi, müqayisəli ümumiləşdirmə və s. metodlardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- İnsan amili sadə əmək resursu deyil, bilik, bacarıq, motivasiya və sosial davranışları birləşdirən kompleks kateqoriya kimi iqtisadi artımın və dayanıqlı inkişafın əsas hərəkətverici qüvvəsinə çevrilmişdir. Müasir mərhələdə insan amili milli iqtisadiyyatın rəqabət üstünlüklərini formalaşdıran strateji faktor kimi çıxış edir.

- İnsan resurslarının idarə edilməsi əsasən əməyin kəmiyyət-keyfiyyət təşkili ilə məhdudlaşdığı halda, insan amilindən istifadə yanaşması insanın davranış, motivasiya, yaradıcılıq və sosial-mədəni xüsusiyyətlərini iqtisadi qərarvermə prosesinə inteqrasiya edən daha geniş metodoloji çərçivəni ifadə edir.

- İnsan amilindən səmərəli istifadə yalnız bazar mexanizmləri ilə təmin olunmur və dövlətin təhsil, səhiyyə, innovasiya, məşğulluq və institusional mühit üzrə əlaqələndirilmiş tənzimləyici rolunu tələb edir.

- İqtisadi artım ilə məşğulluq arasında zəif əlaqə formalaşmışdır ki, bu da iqtisadiyyatın struktur transformasiyası və məhsuldarlıq yönümlü artım modeli ilə izah olunur. Bu şəraitdə

insan amilinin səmərəliliyinin artırılması əsasən keyfiyyət və institusional amillərlə bağlıdır.

- Təhsil sistemi insan amilindən səmərəli istifadənin əsas institusional mexanizmi olmaqla, iqtisadi inkişafa təsiri təhsilin keyfiyyəti, əmək bazarına uyğunluğu və innovativ bacarıqların formalaşdırılması səviyyəsi ilə müəyyən olunur.
- Müasir iqtisadi artım şəraitində insan amilindən səmərəli istifadə məşğulluğun kəmiyyət artımı ilə deyil, əmək məhsuldarlığının, innovasiya fəallığının və insan kapitalının keyfiyyət göstəricilərinin yüksəldilməsi ilə təmin edilir.
- İnsan kapitalından istifadənin səmərəliliyi təhsilə ayrılan maliyyə resurslarının həcmi ilə deyil, bu resursların əmək bazarının tələbləri, institusional idarəetmə mexanizmləri və innovativ mühitlə uyğunlaşdırılması səviyyəsi ilə müəyyən olunur.

**Dissertasiya tədqiqatının elmi yeniliyi aşağıdakılardan ibarətdir:**

- İqtisadi nəzəriyyədə insan amilinə dair klassik, neoklassik, keynsçi, institusional və müasir yanaşmalar vahid təkamül xətti çərçivəsində sistemləşdirilmiş, insan amilinin iqtisadi inkişafda yalnız istehsal amili deyil, eyni zamanda innovasiya, institusional transformasiya və sosial dəyər yaradan kompleks subyekt kimi çıxış etdiyi elmi cəhətdən əsaslandırılmışdır.
- İnsan resurslarının idarə edilməsi ilə insan amilindən istifadə anlayışları metodoloji baxımdan fərqləndirilmiş, insan resurslarının əsasən kəmiyyət və funksional yanaşmaya, insan amilinin isə davranış, motivasiya, yaradıcılıq və sosial-mədəni komponentlərə söykənən keyfiyyət xarakterli olduğu əsaslandırılmışdır.
- Dövlət tənzimlənməsinin insan amilindən səmərəli istifadəyə təsiri birbaşa və dolayı mexanizmlər üzrə strukturlaşdırılmışdır.

- İnsan amilinin səmərəliliyinin fərdi bacarıqlarla yanaşı, institusional mühitin keyfiyyəti, rəqəmsal infrastruktur və innovasiya yönümlü dövlət siyasətinin uzlaşdırılması ilə müəyyən olunduğu əsaslandırılmışdır.

- Demoqrafik proseslər, əmək bazarının kəmiyyət və keyfiyyət göstəriciləri, əməkhaqqı dinamikası, peşə hazırlığı xərcləri və məşğulluqla ÜDM arasında əlaqənin səbəbləri göstərilmişdir.

- Təhsilin inkişaf mərhələləri, beynəlxalq təhsil indeksləri, bilik iqtisadiyyatı göstəriciləri əsasında səmərəliliyi məhdudlaşdıran əsas amillər (təhsilin aşağı keyfiyyəti, ali və peşə təhsilinin əmək bazarının tələbləri ilə uyğunsuzluğu, təhsil–innovasiya–istehsal inteqrasiyasının zəif olduğu) müəyyən edilmişdir.

- Azərbaycan iqtisadiyyatında resurs əsaslı inkişaf modelindən innovasiya yönümlü inkişaf mərhələsinə keçidin təşkilati - iqtisadi mexanizmi müəyyən edilmişdir.

- Azərbaycanda insan kapitalından istifadənin səmərəliliyinin yüksəldilməsi üçün həlledici amil kimi təhsilə investisiyaların keyfiyyət–məhsuldarlıq–institusional uyğunluq zənciri üzrə idarə olunmasının əhəmiyyəti əsaslandırılmışdır.

**Tədqiqatın nəzəri-metodoloji əsasını** iqtisadi elmin klassiklərinin əsərləri, insan amilinin inkişafı problemləri üzrə yerli və xarici alimlərin araşdırmaları təşkil edir. Azərbaycanın İqtisadiyyat İnstitutunun əməkdaşlarının elmi işlərindən istifadə olunmuşdur. Ölkənin iqtisadi inkişafında insan amilinin inkişafı problemləri ilə bağlı yerli və xarici ölkə alimlərinin elmi əsərləri, monoqrafiyaları, məqalələri və elmi-praktiki konfransların materialları öyrənilmişdir.

**Tədqiqatın informasiya və faktiki bazasını** yerli və beynəlxalq təşkilatların rəsmi materialları, statistik məcmuələri və iqtisadi sahədəki nəşrlərinin materialları, BMT-nin "İnsan İnkişafı Proqramı" təşkil edir. Müqayisə, ümumiləşdirmə, səbəb-nəticə əlaqəsi və iqtisadi-statistik təhlil metodlarından istifadə edilmişdir.

**Tədqiqatın aprobasiyası və nəticələrin tətbiqi.** Tədqiqat işinin ayrı-ayrı müddəaları, əldə olunan nəticələr və işdə irəli sürülən təklif, tövsiyələr ölkəmizdə və xaricdə nüfuzlu jurnallarda, həmçinin respublika və beynəlxalq əhəmiyyətli konfrans materiallarında ümumi həcmi 11,25 ç.v. həcmində, 25 adda elmi məqalə və tezislər dərc edilmişdir. Konfrans materiallarından "Rəqəmsallaşmanın insan amilinin səmərəliliyinin artırılmasına təsiri" (19-22/06/2025 Varşava-Polşa); "Alimlərin ölkənin iqtisadi inkişafında insan amilinin rolu və əhəmiyyəti barədə baxışların təkamülü" (08-12/11/2025 Dubay-UAE); "İnsan amilinin səmərəliliyinin artırılmasına investisiyalar" (20-22/06/20-25 Ankara); "Оценка влияния сферы образования на экономическое развитие страны" (2025. Грузия); «Совершенствование использования ЧФ в процессе управления производством в условиях глобализации» (15/09/2013); «Анализ состояния подготовки научных кадров в формировании ЧФ» (18-19/05/2012).

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya işi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işinin I fəsli 77 459 simvol, II fəsli 63 779 simvol, III fəsli 52 551 simvol olmaqla, giriş, nəticə və təkliflər, ədəbiyyat siyahısı ilə birlikdə 234 063 simvolu əhatə edir.

## Dissertasiya işinin strukturu

**GİRİŞ**
**I FƏSİL. İNSAN AMİLİNDƏN SƏMƏRƏLİ İSTİFADƏNİN KONSEPTUAL ƏSASLARI**
1.1. İqtisadi inkişafda insan amilinin roluna və mahiyyətinə dair nəzəri baxışların təkamülü
1.2. İnsan amilindən istifadə və insan resurslarının idarə edilməsinin nəzəri əsasları
1.3. İqtisadiyyatda insan amilindən səmərəli istifadənin dövlət tənzimlənməsinin xüsusiyyətləri
**II FƏSİL. MİLLİ İQTİSADİYYATDA İNSAN AMİLİNDƏN İSTİFADƏ SƏVİYYƏSİNİN MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ**
2.1. Azərbaycanda demoqrafik proseslər və əmək bazarında baş verən dəyişikliklərin qiymətləndirilməsi
2.2. İnsan amilinin səmərəli istifadəsində təhsilin rolunun qiymətləndirilməsi
2.3. İqtisadi artımın təmin edilməsində insan amilindən istifadənin qiymətləndirilməsi
**III FƏSİL. AZƏRBAYCANDA İNSAN AMİLİNDƏN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTLƏRİ**
3.1. İnsan kapitalından istifadənin səmərəliliyinin yüksəldilməsi istiqamətləri
3.2. Rəqəmsallaşdırmanın insan amilindən istifadənin səmərəliliyinin yüksəldilməsinə təsiri
3.3. İnsan amilinin səmərəliliyinin yüksəldilməsində investisiyaların rolu
**Nəticə və təkliflər**
**İstifadə olunmuş ədəbiyyat siyahısı**

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar şərh olunmuş, işin elmi yenilikləri, nəzəri-praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi öz əksini tapmışdır.

Dissertasiyanın **"İnsan amilindən səmərəli istifadənin konseptual əsasları"** adlı birinci fəslində iqtisadi inkişafda insan amilinin roluna və mahiyyətinə dair nəzəri baxışların təkamülü araşdırılaraq nəzəri müddəalar ümumiləşdirilmiş, insan amilindən istifadə və insan resurslarının idarə edilməsinin nəzəri əsasları tədqiq edilmiş, insan amilinin səmərəli istifadənin dövlət tənzimlənməsinin nəzəri əsasları araşdırılmışdır.

Nəzəri araşdırmalar göstərir ki, klassik iqtisadi məktəbin nümayəndələri olan A.Smit və D.Rikardo insan amilini əsasən əmək bölgüsü və istehsal prosesində funksional iştirak prizmasından qiymətləndirmiş, əmək məhsuldarlığının artımını iqtisadi inkişafın başlıca mənbəyi kimi qəbul etmişlər. Bu yanaşmada insan amili daha çox kəmiyyət xarakterli əmək resursu kimi çıxış etmişdir.

Şərq iqtisadi-fəlsəfi fikrində, o cümlədən Azərbaycan mütəfəkkirlərinin əsərlərində insan amilinə daha geniş və dəyər yönümlü yanaşmalar formalaşmışdır. N.Gəncəvi və N.Tusi insanı yalnız maddi istehsal subyekti deyil, əxlaqi məsuliyyət daşıyan, biliyi və davranışı ilə cəmiyyətin inkişafına təsir göstərən əsas qüvvə kimi təqdim etmişlər. Bu baxışlar insan amilinin sosial və mənəvi ölçülərinin iqtisadi proseslərlə sıx bağlı olduğunu göstərmişdir.

Sonrakı mərhələdə neoklassik və keynsçi nəzəriyyələrdə (A.Marşall, J.M.Keyns) insan amili məşğulluq, gəlir bölgüsü və dövlətin iqtisadi proseslərdə rolu kontekstində izah edilmiş, institusional yanaşmada isə (T.Veblen, D.Nort) insan davranışları, sosial normalar və institutların iqtisadi inkişafdakı təsiri ön plana çəkilmişdir. Bu yanaşmalar insan amilinin yalnız istehsal

faktoru deyil, həm də iqtisadi qərarvermə və institusional dəyişikliklərin daşıyıcısı olduğunu əsaslandırmışdır.

Klassik iqtisadi nəzəriyyədə A.Smit, D.Rikardo və K.Marks istehsal prosesində insanın aparıcı rolunun vurğulanması, sonrakı mərhələdə isə A.Marşall tərəfindən insanın bilik və bacarıqlarının iqtisadi dəyər yaradan amil kimi dəyərləndirilməsi insan amili anlayışının formalaşmasının nəzəri əsasını təşkil etmişdir.

XX əsrdə bu yanaşmaların davamı olaraq, H.Zərdabi və Ə.Hüseynzadənin əsərlərində insanın maariflənməsi, bilik və peşə hazırlığının iqtisadi tərəqqinin əsas şərti olduğu ideyası irəli sürülmüşdür. Bu baxışlar insan amilinin inkişafının milli iqtisadiyyatın davamlılığı və modernləşməsi ilə birbaşa əlaqəsini ortaya qoymuşdur.

İşdə iqtisadi nəzəriyyənin təkamülü fonunda insan amili sadə əmək resursu anlayışından kənara çıxaraq, bilik, bacarıq, motivasiya və sosial davranışları birləşdirən kompleks iqtisadi kateqoriya kimi formalaşmışdır. Xüsusilə müasir dövrdə insan amili iqtisadi artımın əsas hərəkətverici qüvvəsi olmaqla yanaşı, milli iqtisadiyyatın rəqabət üstünlüklərini müəyyən edən strateji faktor kimi çıxış edir.

Müasir transformasiya, rəqəmsallaşma və qeyri-müəyyənlik şəraitində insan amilindən səmərəli istifadənin əhəmiyyəti daha da artmış, bu amilin əmək məhsuldarlığının yüksəldilməsi, innovasiyaların tətbiqi və iqtisadi inkişafı intensiv xarakter almışdır. İnsan amili idarəetmə prosesində çeviklik, koordinasiya və informasiya texnologiyalarının inkişafını təmin etməklə ölkənin rəqabət qabiliyyətinin yüksəldilməsində rolunu durmadan artırır. P.Burdye, F.Fukuyama, A.Giddens və M.Arçer kimi tədqiqatçıların yanaşmalarında insan amilinin fiziki, intellektual, mədəni və fəaliyyət komponentlərinin qarşılıqlı əlaqəsi kimi qeyd olunur. Onlar "Fiziki şəxslərin iqtisadiyyatı"ndan "sistemli iqtisadiyyat"a keçidin zəruriliyi əsaslandıraraq, bu keçidin inklüziv və dayanıqlı inkişaf üçün əhəmiyyətini göstərmişlər.

Azərbaycan iqtisadçı alimlərindən Ş.Muradovun insan potensialını ictimai istehsalın aparıcı qüvvəsi və milli sərvətin formalaşmasının əsas amili kimi, C.Quliyev isə iqtisadi islahatların nəticələrinin insan amili prizmasından dəyərləndirilməsinin zəruri şərti kimi qiymətləndirmişdir. Bu baxımdan insan amilinin yalnız istehsal amili deyil, eyni zamanda iqtisadi yüksəlişin və inkişafın subyekti olduğu elmi cəhətdən əsaslandırılmışdır. Son illərdə insan resurslarının idarə edilməsi proqram-məqsədli yanaşma əsasında həyata keçirilir. Bu bir neçə blok üzrə reallaşır: elmi-analitik; normativ-hüquqi; təşkilati-idarəetmə. Hər bir blok üzrə müəyyən məqsədlər qarşıya qoyulur ki, bunlar da xüsusi idarəetmə imkanları ilə reallaşır. (bax şəkil 1).

| İdarəetmə blokları | İdarəetmə məqsədi | İdarəetmə təsirləri | İdarəetmə subyekti |
|---|---|---|---|
| Elmi-analitik | vəziyyətin sistemli təhlili | tövsiyə və təkliflərin işlənilməsi | informasiya-analitik Mərkəz, ayrı-ayrı mütəxəssislər ekspertlər |
| Normativ-hüquqi | əmək kollektivinin normal sosial-iqtisadi şəraitinin yaradılması | vəziyyət təlimatlar normalar | idarəetmə orqanı Direktorlar şurası |
| Təşkilati-idarəetmə | kollektivin əsas sosial inkişaf istiqamətlərinin reallaşması | əmrlər göstərişlər | idarəedici və onun köməkçiləri, istehsal komplekslərinin rəhbəri, ayrı-ayrı sexlərin və bölmələrin müdirləri |
| Resurs | sosial-iqtisadi məqsədlərin reallaşması | büdcə və digər maliyyələşmə mənbələri | Maliyyə xidməti və mühasibatlıq. |

**Şəkil 1. İnsan resurslarından istifadənin sosial-iqtisadi strukturu**

*Mənbə**:** Şəkil müəllif tərəfindən tərtib edilmişdir. [33,36,40,54,78]*

Göründüyü kimi təsərrüfat subyektlərində insan resurslarından istifadənin səmərəliliyinin artırılması üçün mütləq sosial inkişafın planlaşdırılması həyata keçirilməlidir. Nəzərə almaq lazımdır ki, insan resurslarından istifadə və idarə edilmə ən çox mikroiqtisadi səviyyədə həyata keçirilir. Çünki, öz xüsusi çəkisi və iqtisadiyyatın əhatəliliyinə görə əhəmiyyətli yer tutan mikroiqtisadiyyat özlüyündə ev təsərrüfatlarını, müəssisə və təşkilatları, bazar subyektlərini, bütövlükdə təkrar istehsal fazalarında iştirak edən hər bir insanı birləşdirə bilir.

İnsan amilindən səmərəli istifadənin təmin edilməsində əsas yeri dövlətin tənzimləyici və sistemqurucu rolu oynayır. Çünki insan potensialının inkişafı, əmək məhsuldarlığının yüksəldilməsi və fərdin peşəkar özünüifadəsi üçün zəruri baza şəraiti əsasən dövlət institutları tərəfindən formalaşdırılır. Bu baxımdan insan amilinin səmərəli istifadəsi bazar mexanizmləri ilə məhdudlaşmır və dövlətin birbaşa və dolayı tənzimləmə mexanizmləri ilə mümkün olur.

Dissertasiyada insan amilinin dövlət tənzimlənməsi istiqamətləri təhsil və peşə hazırlığı, səhiyyə sistemi, elm və innovasiyaların stimullaşdırılması, məşğulluq və sahibkarlığın dəstəklənməsi, əmək qanunvericiliyi, institusional mühit və rəqəmsal infrastrukturun inkişafı kontekstində sistemləşdirilmişdir. Göstərilir ki, bu sahələr üzrə həyata keçirilən tənzimləyici siyasət insan kapitalının keyfiyyətinin yüksəldilməsinə, əmək bazarının tələblərinə uyğunlaşmaya və iqtisadi artımın dayanıqlı xarakter almasına xidmət etməlidir.

İşdə insan amilinə sistemli və kompleks yanaşmaların nəzəri əsasları açıqlanmış, insanın sosial-texniki sistemin tərkib elementi kimi digər komponentlərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərdiyi qeyd edilmişdir. Sistemli yanaşma insan–texnologiya–mühit əlaqələrinin uzlaşdırılmasını, kompleks yanaşma isə insanın fizioloji, psixoloji, sosial və institusional xüsusiyyətlərinin birgə nəzərə alınmasını nəzərdə tutur. Bu yanaşmaların vəhdəti insan amilindən istifadənin səmərəliliyinin yüksəldilməsi üçün zəruri metodoloji baza kimi təqdim edilmişdir. Bunlar

insan amilinin potensialının üzə çıxarılması və səmərəli istifadəsi üçün kompleks yanaşma və həyata keçirilən tədbirlərin səmərəliliyinin qiymətləndirilməsi aşağıdakı kimi verilmişdir.

**Dövlətin iştirakının əsas istiqamətləri:**

| İstiqamətlər | Nəticə |
|---|---|
| **Təhsil sisteminin inkişafı:** | bütün səviyyələrdə təhsilin əlçatanlığı və keyfiyyəti – məktəbəqədərdən başlayaraq ali və peşə təhsilinə qədər; |
| **Elm və innovasiyaların dəstəklənməsi:** | elmi tədqiqatların və təcrübə-konstruktor işlərinin (ETTİ) maliyyələşdirilməsi; innovativ infrastrukturun yaradılması (texnoparklar, inkubatorlar, akseleratorlar); texnoloji sahibkarlığın təşviqi; |
| **Səmərəli səhiyyə sisteminin yaradılması** | əhalinin sağlamlığının dəstəklənməsi əmək məhsuldarlığının əsası kimi; sağlam həyat tərzinin təbliği, xəstəliklərin profilaktikası; psixoloji yardımın və mental sağlamlığın inkişafı |
| **Əmək qanunvericiliyinin formalaşdırılması** | əmək şəraitinin tənzimlənməsi, işçilərin hüquqlarının qorunması; çevik məşğulluq mexanizmlərinin, o cümlədən məsafədən işləmə imkanlarının tətbiqi; iş-həyat balansının dəstəklənməsi |
| **Məşğulluğun və sahibkarlığın stimullaşdırılması** | məşğulluq proqramları, xüsusilə gənclər, yaşlılar və həssas qruplar üçün; iş yerlərinin mənbəyi kimi kiçik və orta biznesin dəstəklənməsi; inzibati maneələrin azaldılması və vergi güzəştləri |
| **Rəqəmsal infrastrukturun inkişafı** | bütün regionlarda internetə və rəqəmsal xidmətlərə çıxışın təmin edilməsi; əhalinin rəqəmsal savadlığının dəstəklənməsi; vətəndaşlarla qarşılıqlı əlaqəni sadələşdirən dövlət onlayn xidmətlərinin yaradılması. |
| **Sosial siyasətin formalaşdırılması** | sosial ədalətin təmin edilməsi və bərabərsizliyin azaldılması; pensiya sisteminin inkişafı, ailələrin, əlillərin və işsizlərin dəstəklənməsi; sosial dəstək sistemi vasitəsilə özünüifadə və əmək fəaliyyəti üçün motivasiyanın yaradılması |

*Mənbə**:** Şəkil müəllif tərəfindən tərtib edilmişdir [195].*

Nəticə etibarilə dövlət birbaşa və dolayı müdaxilə tədbirləri vasitəsilə insan amilindən istifadənin səmərəliliyinin artırılması üçün şərait yaradır. Birbaşa müdaxiləyə təhsil, səhiyyə və sosial müdafiə, dolayı müdaxiləyə isə stimullaşdırma, insan kapitalının səmərəliliyinin artırılması üçün əlverişli mühitin yaradılması daxildir.

Ümumən insan amilinin səmərəli istifadəsi dövlətin fəal iştirakı, institusional mühitin keyfiyyəti və həyata keçirilən siyasətlərin kompleksliyi ilə bilavasitə bağlıdır.

Dissertasiyanın **"Milli iqtisadiyyatda insan amilindən istifadə səviyyəsinin mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi"** adlı ikinci fəslində Azərbaycanda demoqrafik proseslər və əmək bazarında baş verən dəyişikliklər, insan amilinin səmərəli istifadəsində təhsilin rolu, insan amilindən səmərəli istifadə ilə iqtisadi artımın təmin edilməsi arasında əlaqə qiymətləndirilmişdir.

Demoqrafik proseslər strateji əhəmiyyət kəsb edir. Son illərdə dünyada və Azərbaycanda əmək potensialının azalması və qocalma prosesinin sürətlənməsi ölkənin iqtisadi inkişafına, əmək bazarına mənfi təsir göstərir, dövlətin sosial yükünü artırır, ixtisaslı işçi qüvvəsinin çatışmazlığına səbəb olur.

Qeyd edək ki, Azərbaycanda da əhalinin artım tempinin aşağı düşməsi və qocalma prosesinin sürətlənməsi müşahidə olunmaqdadır. Belə ki, əhalinin təbii artım göstəricilərinin uzunmüddətli dinamikası əhəmiyyətli azalma meyli ilə səciyyələnir. 1970-ci ildə təbii artım 116,5 min nəfər (hər 1000 nəfərə 22,5) olduğu halda, 2024-cü ildə təbii artım 43,4 min nəfər, hər 1000 nəfərə cəmi 4,2 nəfər təşkil etmişdir. Bu göstəricilər demoqrafik yanaşmanın uzunmüddətli və davamlı xarakter daşıdığını göstərir.

Əhalinin yaş strukturunda baş verən dəyişikliklər əmək potensialının gələcək dinamikası baxımından risk formalaşdırır. Hazırda əhalinin orta yaşı 33,1-dir və 65 yaşdan yuxarı əhalinin xüsusi çəkisi təxminən 9 faiz təşkil edir. Doğulanda gözlənilən

ömür uzunluğu 2000–2024-cü illərdə 71,8 yaşdan 76,9 yaşa çatmışdır.




**Qrafik 2.1. Doğulanda gözlənilən ömür uzunluğu (yaş sayı)**

*Mənbə. DSK-nın 2000-2024 illərin məlumatları.B.*

Əmək bazarının mövcud vəziyyəti üzrə aparılan təhlil göstərir ki, 2010–2024-cü illərdə işçi qüvvəsinin sayı 15,8 faiz artaraq 4587,4 min nəfərdən 5312,1 min nəfərə yüksəlmişdir. Məşğul əhalinin sayı isə 16,2 faiz artaraq 4329,1 min nəfərdən 5029,8 min nəfərə çatmışdır. Bununla yanaşı, işsiz əhalinin sayı 2010-cu illə müqayisədə 9,3 faiz artmış və pandemiya dövründə (2020-ci ildə 368,7 min nəfər) maksimum səviyyəyə çatmışdır.

Əməkhaqqı göstəriciləri üzrə nominal artım əhəmiyyətli olmuşdur. Orta aylıq nominal əməkhaqqı 2010-cu ildə 331,5 manat olduğu halda, 2024-cü ildə 1009,4 manata yüksələrək təxminən iki dəfə artmışdır. Lakin real əməkhaqqı indeksinin 2021-ci ildə 96,9 faizə enməsi nominal artımın inflyasiyaya təsiri ilə tam reallaşmadığını göstərir. İnsan kapitalının keyfiyyət göstəriciləri üzrə təhlil kadrların peşə hazırlığı sahəsində qeyri-sabit dinamikanı üzə çıxarır. 2010-cu ildə peşə hazırlığından keçənlərin sayı 4792 nəfər olduğu halda, 2020-ci ildə bu göstərici 3478 nəfərə enmiş, 2024-cü ildə isə 5265 nəfər təşkil etmişdir. Peşə hazırlığına çəkilən xərclər nominal ifadədə 1,6 dəfə artsa da, onların ümumi əmək xərclərində xüsusi çəkisi 0,09

faizdən 0,06 faizə enmişdir ki, bu da insan kapitalına yönələn investisiyaların nisbi əhəmiyyətinin azalmasını göstərir.

ÜDM artımı ilə məşğulluğun artımı arasındakı paralel dinamikanın təhlili göstərir ki, Azərbaycanda iqtisadi artım əsasən məhsuldarlıq, texnologiya və kapital intensivliyi hesabına təmin olunur. Xüsusilə 2005–2007-ci illərdə ÜDM artımının 120–135 faiz intervalına yüksəldiyi halda, məşğulluğun artım tempinin 100–102 faiz səviyyəsində qalması "az məşğulluqlu artım" modelinin formalaşdığını təsdiq edir. Bu meyl sonrakı illərdə də davam etmişdir. Beləliklə demoqrafik yanaşma, doğum səviyyəsinin azalması, əhalinin yaşlanması və əmək bazarında insan kapitalının keyfiyyət göstəricilərinin zəifliyi insan amilindən istifadənin səmərəliliyini məhdudlaşdıran əsas amillərdir. Bu şəraitdə iqtisadi siyasətin prioriteti məşğulluğun kəmiyyət artımı deyil, insan kapitalının keyfiyyətinin yüksəldilməsi, peşə hazırlığına investisiyaların payının artırılması və əmək məhsuldarlığının davamlı yüksəlişinin təmin edilməsi olmalıdır.

Məhsuldarlığın artması təhsillə birbaşa bağlıdır. Aparılmış təhlil göstərir ki, müasir mərhələdə təhsil insan kapitalının əsas formalaşma mexanizmi olmaqla yanaşı, iqtisadi artımın keyfiyyətinin, əmək məhsuldarlığının və milli rəqabətqabiliyyətliliyin həlledici determinantına çevrilmişdir.

Beynəlxalq müqayisələr göstərir ki, təhsil səviyyəsi indeksi ilə insani inkişaf və məşğulluq göstəriciləri arasında müsbət əlaqə mövcuddur. 2024-cü il üzrə Almaniya, İsveçrə, Norveç və Böyük Britaniya kimi ölkələrdə təhsil səviyyəsi indeksi 0,90-dan yuxarı olmaqla yanaşı, insani inkişaf indeksi 0,94–0,97 intervalında dəyişir. Azərbaycan isə təhsil səviyyəsi indeksi üzrə 0,711 göstərici ilə 76-cı yerdə qərarlaşmışdır ki, bu da 2014-cü illə müqayisədə irəliləyişə baxmayaraq, təhsilin keyfiyyət komponentlərinin hələ də zəif olduğunu göstərir.

*Cədvəl 1.*

**2024-cü ildə ölkələrin təhsil səviyyəsi indeksi üzrə reytinqi**

| Ölkələr | Yer 2024 | Təhsil müddətinin orta uzunluğu (2024-cü il) | Təhsil müddətinin gözlənilən uzunluğu (2024-cü il) | Təhsil səviyyəsi indeksi 2020-ci il | Təhsil səviyyəsi indeksi 2014-cü il | İnsani inkişaf indeksi (İİİ) 2025-ci il | Məşğulluq səviyyəsi, 2024-cü il indeks/yer |
|---|---|---|---|---|---|---|---|
| **Almaniya** | 1 | 14.3 | 17.3 | 0.943/1 | 0.893/7 | 0.959/5 | 63/73 |
| **İsveçrə** | 2 | 13.9 | 16.6 | 0.900/14 | 0.866/14 | 0.970/2 | 64/44 |
| **Kanada** | 3 | 13.9 | 16.0 | 0.894/17 | 0.874/10 | 0.939/16 | 62/63 |
| **ABŞ** | 5 | 13.6 | 16.4 | 0.900/15 | 0.889/8 | 0.938/17 | 60/76 |
| **Estoniya** | 6 | 13.5 | 15.9 | 0.882/21 | 0.874/11 | 0.905/36 | 61/65 |
| **Litva** | 7 | 13.5 | 16.4 | 0.898/16 | 0.868/12 | 0.895/39 | 58/92 |
| **İsrail** | 8 | 13.4 | 15.0 | 0.883/19 | 0.861/17 | 0.919/27 | 63/55 |
| **Böyük Britaniya** | 9 | 13.4 | 17.6 | 0.928/3 | 0.885/9 | 0.946/13 | 60/75 |
| **Norveç** | 12 | 13.1 | 18.6 | 0.930/2 | 0.907/5 | 0.970/2 | 63/50 |
| **Finlandiya** | 18 | 12.9 | 19.2 | 0.927/4 | 0.817/26 | 0.948/12 | 56/106 |
| **Gürcüstan** | 25 | 12.7 | 16.7 | 0.862/26 | 0.787/40 | 0.844/57 | 55/115 |
| **İsveç** | 26 | 12.7 | 19.0 | 0.918/10 | 0.842/19 | 0.959/5 | 62/62 |
| **Qazaxıstan** | 33 | 12.4 | 14.8 | 0.830/35 | 0.798/37 | 0.837/60 | 65/38 |
| **Rusiya** | 34 | 12.4 | 15.7 | 0.823/39 | 0.806/32 | 0.832/64 | 59/77 |
| **Belarus** | 40 | 12.2 | 14.0 | 0.838/32 | 0.834/20 | 0.824/65 | 63/56 |
| **Qırğızıstan** | 42 | 12.0 | 13.0 | 0.730/70 | 0.700/72 | 0.720/117 | 63/47 |
| **Özbəkistan** | 44 | 11.9 | 12.0 | 0.729/71 | 0.862/82 | 0.740/107 | 54/124 |
| **Tacikistan** | 59 | 11.3 | 10.9 | 0.682/96 | 0.658/91 | 0.691/128 | 38/175 |
| **Türkmənistan** | 63 | 11.1 | 13.2 | 0.653/111 | 0.629/108 | 0.764/95 | 46/158 |
| **Ukrayna** | 64 | 11.1 | 13.3 | 0.799/47 | 0.799/36 | 0.779/87 | 49/148 |
| **Azərbaycan** | **76** | **10.6** | **12.7** | **0.711/80** | **0.704/69** | **0.789/81** | **66/31** |

https://gtmarket.ru/ratings/education-index (193 ölkə)
https://www.tehsil.biz/news/ru/5793/
https://sites.google.com/site/genkonproject/home/001/002/01

Statistik təhlil göstərir ki, Azərbaycanda savadlılıq səviyyəsi beynəlxalq miqyasda yüksəkdir (2025-ci il üzrə 100% və 3-cü yer), lakin bilik iqtisadiyyatı indeksi üzrə ölkə 2024-cü ildə 42,4 bal ilə 100-cü yerdə qərarlaşmışdır. Bu fakt insan kapitalının kəmiyyət göstəriciləri ilə keyfiyyət göstəriciləri arasında ciddi uyğunsuzluğun mövcudluğunu təsdiq edir. Müqayisə üçün,

Latviya və Litva savadlılıq səviyyəsinə görə Azərbaycanla eyni mövqedə olsa da, bilik iqtisadiyyatı indeksi üzrə müvafiq olaraq 31-ci və 33-cü yerləri tutur.

Təhsilə çəkilən xərclərin ÜDM-dəki payının təhlili göstərir ki, 2015–2024-cü illərdə Azərbaycanda bu göstərici 2,95%-dən 3,6%-ə yüksəlmişdir. Lakin beynəlxalq reytinqdə ölkə 130-cu yerdə qərarlaşır. Halbuki İsveçdə bu göstərici 7,6%, İsraildə 6,5%, ABŞ-da isə 5,4% təşkil edir. Bu müqayisə göstərir ki, Azərbaycanda təhsilə ayrılan vəsaitlərin həcmi nisbətən artsa da, onların iqtisadi nəticələrə çevrilmə səmərəliliyi aşağıdır. Ali təhsilli əhalinin xüsusi çəkisi üzrə göstəricilər də bu nəticəni təsdiqləyir. 2023-cü ildə Azərbaycanda ali təhsilli əhalinin payı 17,7% təşkil etdiyi halda, bu göstərici ABŞ-da 38,6%, İsraildə 38,1%, Litvada isə 41,4% olmuşdur. Bu fərq əmək bazarında yüksək ixtisaslı işçi qüvvəsinin məhdudluğunu və təhsilin struktur baxımından iqtisadiyyatın tələblərinə tam uyğunlaşmadığını göstərir.

Qlobal Bilik İndeksinin alt komponentləri üzrə müqayisə göstərir ki, Azərbaycanda universitetəqədər təhsil göstəriciləri nisbətən yüksək (66,75 bal) olsa da, ali təhsil üzrə göstərici 32,77 bal ilə 116-cı yeri tutur. Eyni zamanda, elmi tədqiqatlar və innovasiyalar sahəsində göstəricilərin aşağı olması təhsilin insan amilinin məhsuldarlığa və innovasiya fəallığına çevrilməsində institusional boşluqların mövcudluğunu ortaya qoyur. Təhsilin səmərəlilik indeksinin hesablanması nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanda bu göstərici 2015-ci ildə 34,49 olduğu halda, 2024-cü ildə 27,81 təşkil etmişdir. Bu azalma təhsilə yönələn xərclərin artmasına baxmayaraq, əldə olunan iqtisadi nəticələrin adekvat olmadığını göstərir. Müqayisə üçün, Almaniya və Estoniya kimi ölkələrdə təhsilin səmərəlilik indeksi daha sabit və yüksək nəticələr nümayiş etdirir.

Bu yarımfəsildə insan amilinin iqtisadi artımın təmin edilməsində həlledici şərt kimi rolu nəzəri-metodoloji və empirik əsaslar üzrə araşdırılmışdır. Tədqiqatda insan amilinin yalnız əmək resursu və ya istehsal faktoru deyil, təhsil, sağlamlıq, peşəkarlıq, motivasiya, innovasiya fəallığı, sosial davranış və institusional mühitlə qarşılıqlı əlaqədə formalaşan kompleks

sosial-iqtisadi kateqoriya olduğu əsaslandırılmışdır. Müəyyən edilmişdir ki, insan amilinin mahiyyəti insan resurslarının təkrar istehsalı, bölgüsü və istifadəsini əhatə edən bütöv bir sistem kimi çıxış edir və bu sistem iqtisadiyyatın müxtəlif səviyyələrində fərqli funksional formalar alır. İşçi qüvvəsi, insan resursları, əmək resursları və insan kapitalı anlayışları bir-biri ilə sıx bağlı olsa da, mahiyyət etibarilə fərqli kateqoriyalar olub, insan amili bu anlayışların inteqrativ məzmununu ifadə edir.

Statistik təhlil göstərir ki, insan amilinin səmərəliliyi yalnız məşğulluğun kəmiyyət artımı ilə deyil, əmək məhsuldarlığının, innovasiya potensialının və institusional uyğunlaşma qabiliyyətinin yüksəldilməsi ilə müəyyən olunur. Azərbaycanda məşğul əhalinin əhəmiyyətli hissəsinin muzdlu işçi kimi çalışmasına baxmayaraq, əmək münasibətlərinin qeyri-formal xarakter daşıması insan amilinin səmərəliliyini məhdudlaşdıran əsas amillərdən biri kimi çıxış edir. Müqayisəli beynəlxalq göstəricilər əmək müqaviləsi olmadan çalışanların payının inkişaf etmiş ölkələrdə 1,5–4% olduğu halda, Azərbaycanda və bir sıra inkişaf etməkdə olan ölkələrdə bu göstəricinin xeyli yüksək olduğunu təsdiqləyir. Beləliklə, insan amilindən səmərəli istifadə iqtisadi artımın həm əsas şərti, həm də davamlı mənbəyi kimi çıxış edir. İqtisadi artım insan inkişafı üçün maliyyə və institusional imkanlar yaradır, insan amilinin keyfiyyətcə inkişafı isə iqtisadi artımın intensiv, innovasiya yönümlü və dayanıqlı xarakter almasını təmin edir. Bu qarşılıqlı əlaqə müasir iqtisadi inkişaf modelində insan amilinin strateji rolunu müəyyən edən əsas konseptual nəticə kimi çıxış edir.

Dissertasiyanın **“Azərbaycanda insan amilindən istifadənin səmərəliliyinin yüksəldilməsi istiqamətləri”** adlı üçüncü fəslində insan kapitalından istifadənin səmərəliliyinin, rəqəmsallaşdırmanın insan amilindən istifadənin səmərəliliyinin, insan amilinin səmərəliliyinin yüksəldilməsində investisiyaların rolunun artırılması yolları göstərilmişdir.

Statistik müşahidələr sübut edir ki, insan kapitalına yönələn investisiyaların həcmi ilə yanaşı, onların səmərəliliyi və institusional idarə olunması həlledici əhəmiyyət daşıyır. ADSK məlumatları isə 2015–2022-ci illərdə təhsil və informasiya

texnologiyaları sahələrində məşğulluğun 35%-dən çox artdığını göstərir ki, bu da insan kapitalının struktur baxımından yeniləndiyini, lakin keyfiyyət və məhsuldarlıq komponentlərinin gücləndirilməsinə ehtiyacın qaldığını ortaya qoyur. Aparılan təhlillər əsasında insan kapitalından istifadənin səmərəliliyinin artırılması üçün aşağıdakı istiqamətlərin prioritet hesab edilməsi məqsədəuyğun sayılır:




*Mənbə: Şəkil müəllif tərəfindən tərtib edilmişdir*

Azərbaycan şəraitində insan kapitalından istifadənin səmərəliliyinin artırılması iqtisadi artımın ekstensiv mənbələrindən intensiv, məhsuldarlıq və innovasiya əsaslı inkişaf modelinə keçidin əsas şərtlərindən biridir. Bu məqsədlə insan kapitalına yönələn siyasətin yalnız xərclərin artırılmasına deyil, onların keyfiyyət, nəticə və institusional uyğunluq baxımından idarə olunmasına əsaslanması məqsədəuyğun hesab olunur.

Beynəlxalq təcrübə sübut edir ki, rəqəmsal texnologiyaların tətbiqi əmək məhsuldarlığının 20–40% artmasına, idarəetmə və əməliyyat xərclərinin azalmasına, insan resurslarının daha məqsədyönlü və çevik istifadəsinə imkan yaradır. Beynəlxalq statistikaya (ITU) əsasən, Azərbaycan 2024-cü ildə İKT İnkişaf

İndeksi üzrə 175 ölkə arasında 58-ci yeri tutmuş və indeks göstəricisi 80,4 bal təşkil etmişdir ki, bu da əvvəlki illərlə müqayisədə əhəmiyyətli irəliləyişdir. Eyni zamanda, İKT sektorunun gəlirləri 2023-cü ildə 3,2 mlrd manat olmuş və ÜDM-də payı 1,8%-ə yüksəlmişdir. Bu göstəricilər rəqəmsallaşdırmanın iqtisadiyyatda artan rolunu və insan kapitalının rəqəmsal bacarıqlarla transformasiyasının zəruriliyini təsdiqləyir.

Bununla yanaşı, təhlil göstərir ki, rəqəmsallaşdırmanın insan amilinə təsiri birmənalı deyil və müəyyən risklərlə müşayiət olunur. Rəqəmsal bacarıqlar üzrə nəsillərarası fərqlər, ucqar bölgələrdə İKT-yə çıxışın məhdudluğu və bəzi peşələrin transformasiya nəticəsində sıradan çıxması insan kapitalının inklüziv inkişafı üçün əlavə çağırışlar yaradır. Rəqəmsal xidmət ixracının həcminin Azərbaycanda hələ də məhdud qalması (2023-cü ildə adambaşına 1,4 min ABŞ dolları) bu sahədə istifadə olunmamış potensialın mövcudluğunu göstərir. Aparılan təhlillər əsasında əsaslandırılır ki, rəqəmsallaşdırmanın insan amilindən istifadənin səmərəliliyini artırması üçün aşağıdakı istiqamətlər prioritet hesab olunmalıdır:




*Mənbə: Şəkil müəllif tərəfindən tərtib edilmişdir.*

Ümumiyyətlə, insan amilinə yönəldilən investisiyalar müasir iqtisadi inkişafda istehsal amilləri arasında həlledici rol oynayır və dayanıqlı artımın əsas mənbələrindən biri kimi çıxış edir. Təhsil, səhiyyə və sosial müdafiə sisteminə yatırılan investisiyalar insan amilinin səmərəliliyini yüksəltməklə yanaşı, əmək məhsuldarlığının, innovativliyin və rəqabətqabiliyyətliliyin artmasına şərait yaradır.

Statistik göstəricilərin təhlili sübut edir ki, insan kapitalına investisiyaların səviyyəsi ilə iqtisadi nəticələr arasında birbaşa asılılıq mövcuddur. Dünya Bankının məlumatlarına əsasən, Azərbaycanda insan kapitalı indeksi 2010–2020-ci illərdə 0,50-dən 0,58-ə yüksəlmişdir ki, bu da təhsilə çıxışın genişlənməsi və səhiyyə xidmətlərinin yaxşılaşması ilə əlaqələndirilir. Proqnozlara görə, 2024–2050-ci illərdə insan kapitalına yönələn investisiyaların orta illik artım tempi 1,7% təşkil edəcəkdir.

Müqayisəli təhlil göstərir ki, Finlandiya, Sinqapur və Estoniya kimi ölkələrdə insan kapitalı indeksinin yüksək səviyyədə olması (0,78–0,88 aralığında) təhsilə və səhiyyəyə ayrılan xərclərin həcmi, xidmətlərin keyfiyyəti və investisiyaların nəticəyönümlü idarə olunması ilə bağlıdır. Azərbaycanda isə təhsilə çəkilən xərclərin ÜDM-də payının 3,3–3,5% səviyyəsində qalması, səhiyyə xərclərində vətəndaşların şəxsi payının yüksək olması (təxminən 69%) investisiya siyasətinin effektivliyinin artırılmasını zəruri edir.

Sahələr üzrə aparılan təhlil göstərir ki, insan amilinin səmərəliliyinin artırılması üçün investisiyalar əsasən beş istiqamətdə cəmləşdirilməlidir: təhsil və peşəkar inkişaf, səhiyyə və profilaktika, əmək şəraiti və motivasiya mühiti, rəqəmsallaşma və texnoloji modernləşmə, dövlət və özəl sektorun birgə inkişaf proqramları. Xüsusilə rəqəmsal texnologiyalara və bacarıqların yenilənməsinə yönəlmiş investisiyalar əmək məhsuldarlığının 20–30% artmasına, kadr axıcılığının azalmasına və insan amilinin iqtisadi dövriyyəyə daha effektiv cəlb olunmasına imkan yaradır.

Tədqiqatın nəticələri əsasında belə qənaətə gəlinir ki, insan amilinin səmərəliliyinin artırılması üçün investisiya siyasəti

nəticəyönümlü indikatorlar əsasında qurulmalı, HR-analitika və ölçülə bilən səmərəlilik meyarları tətbiq edilməli, dövlət–biznes–təhsil əməkdaşlığı gücləndirilməlidir. Xüsusilə ömürboyu təhsil, yenidən hazırlıq, rəqəmsal və "yaşıl" bacarıqların inkişafı istiqamətində yatırımların genişləndirilməsi məqsədəuyğun hesab olunur.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

**Nəticələr**

1. **İqtisadi nəzəriyyədə insan modelinin konseptual əsasları.** İqtisadi nəzəriyyədə insan modeli fərdlərin müxtəlif sosial-iqtisadi sistemlərdə formalaşan davranış, motivasiya, məqsəd və qərarvermə mexanizmlərinin məcmusu kimi şərh olunur. Aparılan tədqiqat göstərir ki, qloballaşma və institusional transformasiyalar şəraitində insan modelinə dair mövcud klassik yanaşmalar iqtisadi reallıqları tam əhatə etmir. Klassik dövrəqədərki mərhələnin də nəzərə alınması ilə insan modelinin altı istiqamət üzrə inkişaf etdiyi əsaslandırılmış və bu yanaşma tədqiqatın nəzəri-metodoloji bazasının sistemləşdirilməsinə imkan vermişdir.

2. **İnsan amilinin iqtisadi məzmunu və çoxölçülü xarakteri.** "İnsan amili" anlayışı yalnız əmək qabiliyyəti ilə məhdudlaşmır, bilik, bacarıq, sağlamlıq, motivasiya, dəyərlər və davranış xüsusiyyətlərini özündə birləşdirən kompleks iqtisadi kateqoriya kimi çıxış edir. İnsan amili sosial, iqtisadi, texnoloji və institusional münasibətlər sistemində formalaşaraq müasir iqtisadiyyatın əsas keyfiyyət göstəricilərindən birinə çevrilmişdir.

3. **İnsan amilinin iqtisadi artımdakı rolu.** Müəyyən edilmişdir ki, insan amili istehsal prosesində həm obyektiv, həm də subyektiv rol oynayır. Ənənəvi fiziki kapital əsaslı artım modelləri müasir şəraitdə öz məhdudiyyətlərini nümayiş etdirmiş, elmi-texnoloji tərəqqi və innovasiyalar insan amilini iqtisadi artımın əsas hərəkətverici qüvvəsinə çevirmişdir. İnsan inkişafı iqtisadi artımın şərti, iqtisadi artım isə insan inkişafının həm vasitəsi, həm də məqsədi kimi çıxış edir.

4. **"Fərdlər iqtisadiyyatı"ndan "sistemli iqtisadiyyat"a keçid.** Aparılan təhlil göstərir ki, müasir mərhələdə iqtisadi inkişafın "fərdlər iqtisadiyyatı" yanaşması ilə izahı kifayət etmir. Sistemli iqtisadiyyat modeli bütövlük, ardıcıllıq, dayanıqlıq və institusional uyğunluq prinsiplərinə əsaslanaraq insan amilini iqtisadi inkişafın əsas sistemli xarakteristikası kimi müəyyən edir.

5. **İnsan amilinin tarixi inkişaf mərhələləri.** Tədqiqat nəticəsində insan amilinin inkişafı dörd əsas mərhələdə ümumiləşdirilmişdir: sənaye öncəsi dövrdə insanın istehsalda passiv rolu; kütləvi təhsil mərhələsində insan kapitalının institusional

əsaslarının formalaşması; XX əsrin ikinci yarısında təhsilə investisiyaların iqtisadi artımın əsas amili kimi qəbul edilməsi; XXI əsrdə insan kapitalının "insan potensialı" anlayışına transformasiyası.

6. **Azərbaycan üzrə nəticələr.** Azərbaycanda insan kapitalına yönəlmiş investisiyalarda müsbət dinamika müşahidə olunsa da, regionlar arasında fərqlər, təhsil və səhiyyə xidmətlərinin keyfiyyəti və əlçatanlığı insan amilindən istifadənin səmərəliliyini məhdudlaşdırır. İnsan Kapitalı İndeksinin 0,789 səviyyəsində olması mövcud potensialdan tam istifadə edilmədiyini və struktur islahatların zəruriliyini göstərir.

7. **İnsan amili və iqtisadiyyatın diversifikasiyası.** İqtisadiyyatın şaxələndirilməsi şəraitində insan amilinin inkişafı Azərbaycanın uzunmüddətli rəqabətqabiliyyətinin əsas şərtlərindən biri kimi çıxış edir. Keyfiyyətli təhsil, rəqəmsal bacarıqlar və innovasiya mühitinin gücləndirilməsi bilik əsaslı iqtisadiyyata keçidi sürətləndirir.

8. **Post-sənaye cəmiyyətində insan amilinin rolu.** Post-sənaye cəmiyyətinə keçid bilik tutumlu sektorların və informasiya texnologiyalarının inkişafı ilə müşayiət olunur. Bu mərhələdə insan intellekti, yaradıcılıq və yüksək ixtisaslı əmək məhsuldarlığın və idarəetmə səmərəliliyinin əsas mənbəyinə çevrilir.

9. **Mövcud problemlər və institusional məhdudiyyətlər.** Təhsil ilə əmək bazarı arasında əlaqələrin zəifliyi, elmi-innovasiya fəaliyyəti ilə təhsilin inteqrasiyasının aşağı səviyyəsi və institusional koordinasiyanın yetərsizliyi insan amilinin keyfiyyətini məhdudlaşdırır. Eyni zamanda ekoloji və psixoloji risklər, biliklərin sürətlə köhnəlməsi insan resurslarının deqradasiyası riskini artırır.

**Təkliflər**

İnsan amilinin səmərəliliyinin artırılması müasir iqtisadi inkişafın əsas prioritetlərindən biri kimi kompleks və sistemli yanaşma tələb edir. Bu baxımdan, əmək bazarının cari və perspektiv tələblərinə uyğun ixtisasların formalaşdırılması və insan kapitalına yönəlmiş investisiyalar üçün cəlbedici institusional mühitin yaradılması məqsədəuyğundur.

Təhsil, səhiyyə və peşəkar inkişaf sahələrində keyfiyyət yönümlü islahatların aparılması, fasiləsiz təhsil və yenidən hazırlıq mexanizmlərinin gücləndirilməsi insan amilinin real iqtisadi dövriyyəyə cəlb olunmasına imkan verə bilər. Təhsil sistemi ilə əmək bazarı və innovasiya mühiti arasında əlaqələrin möhkəmləndirilməsi bu prosesin əsas şərtlərindən biridir.

İnsan inkişafı ilə iqtisadi artım arasında mövcud olan qarşılıqlı asılılıq "insan inkişafı – iqtisadi artım – yeni inkişaf imkanları" ardıcıllığı üzrə izah edilməlidir. Təbii sərvətlərdən əldə olunan gəlirlərin insan kapitalına yönəldilməsi bilik və innovasiya əsaslı iqtisadi modelə keçidi sürətləndirə bilər.

Rəqəmsallaşma və texnoloji transformasiya şəraitində insan amilinin innovasiya yönümlü inkişafının təmin edilməsi, dövlətin tənzimləyici və stimullaşdırıcı rolunun gücləndirilməsi, dövlət–özəl tərəfdaşlığının genişləndirilməsi və regional kompetensiya mərkəzlərinin yaradılması məqsədəuyğun hesab olunur.

Ümumilikdə, insan amilindən istifadənin səmərəliliyinin artırılması Azərbaycanın resurs əsaslı inkişaf modelindən bilik və innovasiya əsaslı iqtisadiyyata keçidini təmin edən həlledici institusional amil kimi çıxış edir.

**Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin dərc edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır (ümumi dərc edilmiş əsərlərin sayı 25-dir):**


1. Mirzəbəyova, J.S. Elm sferasında insan amili // Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin xatirəsinə həsr olunmuş elmi-praktik konfransların materialları. May 2008-2009, səh.94-96.
2. Mirzəbəyova, J.S. İnsan kapitalı anlayışı iqtisadi fikir tarixində / "Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri (iqtisadiyyat seriyası)" №2, 2011, səh.203-206.
3. Mirzəbəyova, J.S. İqtisadiyyatda insan amili və onun tədqiqinin metodoloji əsasları / "Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu Elmi Əsərlər. Bakı, №4, 2011, səh.396-401.
4. Mirzəbəyova, J.S. Совершенствование использования ЧФ в процессе управления производством в условиях

глобализации. Економічна наука. №15. 2013. Украина. с.1122-114.

5. Mirzəbəyova, J.S. İnsan kapitalının formalaşma amillərinin iqtisadi ədəbiyyatlarda tədqiqi / "Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri (iqtisadiyyat seriyası)" №5 (sentyabr –oktyabr), 2015, səh.52-59.
6. Mirzəbəyova, J.S. Müasir dövrdə insan kapitalı, əmək resursları və istehsal münasibətlərinin formalaşmasının sosial-iqtisadi əsasları / "Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri (iqtisadiyyat seriyası)" №1, 2015, səh.30-35.
7. Mirzəbəyova, J.S. Müasir dövrdə iqtisadi ədəbiyyatlarda insan kapitalının qiymətləndirilməsi üsulları / "AMEA İqtisadiyyat İnstitutu Elmi əsərlər" № 2, 2015, səh.27-32.
8. Mirzəbəyova, J.S. İnsan amili: İqtisadi fikirdə ümumi meyl və istiqamətlər / "AMEA İqtisadiyyat İnstitutu Elmi əsərlər", № 4 (iyul –avqust), 2017, səh.200-208.
9. Mirzəbəyova, J.S. Rəqəmsallaşmanın insan amilinin səmərəliliyinin artırılmasına təsiri // 1.İnternational Warsaw Scientific Research and Innovation Congress 19-22 june 2025. Warsaw/Poland. səh.190-194.
10. Mirzəbəyova, J.S. İnsan amilinin səmərəliliyinin artırılmasına investisiyalar // 7.Baskent İnternational Conference on Multidisciplinary Studies. 20-22 june 2025. Ankara, Türkiyə. səh.1500-1506.
11. Mirzəbəyova, J.S. Оценка влияния сферы образования на экономическое развитие страны / Ekonomisti. İnternational Scientific – Analytical Journal, №3, 2025, səh.122-131.
12. Mirzəbəyova, J.S. Alimlərin ölkənin iqtisadi inkişafında insan amilinin rolu və əhəmiyyəti barədə baxışlarının təkamülü // İSARC. 12.Uluslararası Bilimsel Araştırmalar ve İnovasyon Kongresi. 08-12 November 2025. Dubai – UAE, səh. 129-135.
13. Azərbaycanda ali təhsil sistemində rəqabət problemi və onun həlli istiqamətləri. s.201-222. B., 2025, s.292. kollektiv monoqrafiya "Dayanıqlı və rəqabətqabiliyyətli iqtisadi artımın olunmasının tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi.

Dissertasiyanın müdafiəsi "08" may 2026-cı il tarixində saat $11^{00}$-da AR ETN İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.10 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ1143, Azərbaycan Respublikası, Bakı ş., H.Cavid pr. 115, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutu.

**E-mail:** economicscomaz@gmail.com

Dissertasiya ilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun rəsmi internet saytında (https://economics.org.az/) yerləşdirilmişdir.

Avtoreferat "02" aprel 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 10.03.2026
Kağızın formatı: A5
Həcm: 39 927
Tiraj: 100